UOT 94(479.24)

# XVIII ƏSRDƏ AZƏRBAYCAN ŞƏHƏRLƏRİNİN TƏSVİRİ DİPLOMATİK MİSSİYALARIN SƏNƏDLƏRİNDƏ

**Z.R.İSLAMOVA**
***Bakı Dövlət Universiteti***
***ayxan.islamli@mail.ru***

*Təqdim edilmiş məqalə XVIII əsrdə Azərbaycan şəhərləri, onların təsviri və təsərrüfat həyatına həsr olunmuşdur. Həmin dövrdə Azərbaycanda olmuş diplomatik missiyaların sənədlərində, səyyah gündəliklərində Azərbaycanın mühüm şəhərləri haqqında müxtəlif məlumatlar vardır. Məqalədə onların bir yerə toplanması və müqayisə edilərək obyektiv nəticə əldə edilməsinə cəhd olunmuşdur.*

**Açar sözlər:** Səfəvilər, Azərbaycan, Şamaxı, Gəncə, Bakı, şəhər

XVIII əsrin I yarısında ölkəmizdə baş verən mühüm siyasi hadisələr Səfəvilər dövlətinin tənəzzülü, Hacı Davud üsyanı, Rusiya və Osmanlının ölkəmizin ərazilərini ələ keçirmələri, Əfşarlar imperiyası Azərbaycanın şəhər həyatına təsir etmiş, Azərbaycan şəhərləri yürüşlər nəticəsində dağıntılara məruz qalmışdı. XVIII əsrin II yarısında xanlıqların yaranması qismən sabitliyə və müəyyən tərəqqiyə səbəb olmuşdu. Şəhər iqtisadiyyatında izlənilən vəziyyət barədə alman mənşəli rus ordu zabiti M.Biberşteyn yazır ki, ardı-arası kəsilməyən müharibələr əhalinin əhvali-ruhiyyəsinə təsir etsə də, təsərrüfat həyatının gedişinə maneçilik törətsə də, yaşamaq məcburiyyəti onları təsərrüfatdan əl çəkməyə qoymurdu [1, 36].

XVIII əsrin birinci yarısında hərbi əməliyyatlar və xarici müdaxilə zamanı iqtisadi cəhətdən zəngin olan şəhərlər daha çox dağıntılara məruz qalırdı. Buna görə də, şəhər hakimləri şəhərlərin müdafiəsinə daha çox diqqət yetirir, qala divarlarını möhkəmləndirir, əhalini qorumaq məqsədilə onları qaladan içəridə yerləşdirirdilər. Varlı əyan və məmurlar da öz evlərini qala divarları daxilində tikdirirdilər. Qala divarlarından kənarda kasıb evləri, bəzən emalatxanalar və qaçıb gələnlərin gecəqonduları yerləşirdi. Xanlıqlar dövründə dağılmış şəhərlər bərpa olunur, yeniləri salınırdı. Bəzi xanlar qədim qalaları bərpa edib möhkəmləndirməklə yanaşı, əlverişli ərazilərdə yeni şəhərlər də

tikirdilər. Artemi Araratski bu barədə “xan (İrəvan xanı-Z.İ.) göstərilən yerdə-Ağrı dağında qarətçi yürüşlərdən müdafiə olunmaq üçün qala tikilməsini əmr edir” [2, 38].

Azərbaycanın ən qədim şəhərlərindən biri hesab olunan Şamaxı şəhəri bir neçə əsr ərzində Şirvanşahlar dövlətinin paytaxtı, sonralar Şirvan bəylərbəyliyinin mərkəzi olmuşdu. XVIII əsrin sonlarınadək həm iqtisadi, həm də ticarət baxımından özünün üstünlüyünü saxlayan Şamaxı şəhərini 1715-1722-ci illər arasında iki dəfə burada olmuş C.Bel belə təsvir edir: “Şamaxı Midiyanın bir hissəsini təşkil edirdi. Hazırda isə “Şirvan” adlanan böyük bir əyalətin paytaxtıdır. Şəhər dağın ətəyində amfiteatr şəklində salınmışdır. Şəhər böyükdür. Lakin canişin, hakim və bəzi varlı adamların evlərindən başqa evlər pis tikilmişdir. Onun küçələri dar və əyridir” [3, 396]. Buxaraya gedən rus səfiri F.Beneveni yazır ki, “Şamaxıda Xan sarayına gedən yol dardı və atlarla buradan keçmək olmur” [4, 51]. Fransız C.Otter yazırdı ki, “Azərbaycanın Muğan və Şirvan əraziləri üç tərəfdən Gilan, Deyləm və ...Van ilə sərhədlənir”, hətta səyyah sərhədləri qeyd edərkən “Xəzər və ya Şirvan dənizi ilə” əhatələndiyini qeyd edir [5, 290]. Xəzərin Şirvan dənizi kimi qeyd edilməsi, eyni zamanda ölkəmizin Azərbaycan kimi göstərilməsi bu dövr mənbələrində az rast gəlindiyinə görə böyük maraq kəsb edir. 1720-1721-ci illərdə Şamaxı şəhəri Hacı Davud və Surxay xanın dəstələri tərəfindən darmadağın edilir. F.Beneveni bunu təsdiqləyərək “üsyançılar hamısı birləşərək, Şirvana hücum edib şəhəri aldılar” [4, 47]. Bu üsyanlar haqqında İ.Q.Gerber yazırdı ki, “1720-ci ildə Davud bəyin başçılığı ilə qiyamçılar Şamaxını ələ keçirmiş və 1723-cü ilədək oraya sahib olmuşdular. 1728-ci ilədək türklərin himayəsində olmuş, bu zaman Şamaxını Osmanlı sultanının vassalı Hacı Davud idarə edirdi. 1728-ci ildə Hacı Davud həbs edilərək Şamaxıdan sürgün edilir. Surxay xan Şamaxı və Şirvan hakimi təyin edilir. Üsyançılar bütün şəhəri, manufakturaları, ticarəti dağıtmış, yerli əhalini öldürmüş və qovmuşdular” [7, 94]. C.Hanvey tərəfindən “qiyamçıların sığınacağı” kimi qeyd edilən Şamaxının ticarət yollarının qovuşacağında yerləşməsi şəhərin tezliklə bərpasını şərtləndirdiyini qeyd edir [6, 334]. Nadir xan 1734-cü ildə Şamaxı şəhərinə daxil olan kimi Hacı Davud üsyanı zamanı ona tərəf çıxmasını bəhanə edərək oranın dağıdılması əmrini verir. Bu məsələyə C.Hanvey öz əsərində “şəhər ləzgilərin üzünə açıq olduğuna görə, Nadiri bərk hirsləndirdi və o, şəhəri yerlə-yeksan etmək, əhalisini qırmaq qərarını verdi. Lakin Nadirin hirsi soyuduqdan sonra dağlara qaçmış əhalinin geri qayıtmasına və dağın qərb səmtində yeni şəhər salmağa imkan verdi” [6, 333]. “Şəhər düşmən üçün açıq olduğuna” görə əhalinin Ağsuya köçürülməsi haqqında tarixşünaslıqda mülahizələr vardır. Bir çox mənbələrdə və elmi əsərlərdə Nadir şah tərəfindən 1734-cü ildə mərkəzin Ağsuya köçürülməsi ilə yanaşı Şamaxı şəhərinin dağıdıldığı da göstərilmişdir. Ancaq C.Hanvey əsərində Şamaxı şəhərinə yüksək qiymət verərək yazırdı: “Şamaxı qədimdən bu zamana qədər dünyanın ən abad və mötəbər şəhərlərindən biri olub, bərəkətli torpaqlar həyatı xoşagələn edir və bura daim intensiv ticarət

mərkəzlərindən biridir. Fars, türk, erməni, gürcü və rus tacirləri buradan çoxlu sifarişlər edir və ona görə də, şəhər bütün bu ölkələr, eyni zamanda Avropa üçün əsas ştapeldir. Bura eyni zamanda müdafiə ərazisidir" [6, 333]. Səyyahın bu qeydləri Nadir şah tərəfindən şəhərin ancaq qala divarlarının dağıdıldığını, mərkəzin isə Ağsuya köçürüldüyünü, lakin bütün bunların onun iqtisadi həyatına çox ciddi təsir etmədiyindən xəbər verir. İ.Q.Gerber Şamaxı şəhəri haqqında yazır ki, "farslar (Səfəvilər) dövründə burada iri ticarət gedir, ipək fabrik və manufakturaları vardır. Burada bahalı parça və xalça hazırlayırlar, fars, rus, Osmanlı, erməni, hindli və digər xalqlardan olan əcnəbi tacirlər buraya ticarət üçün gəlir və yaşayır, bunun nəticəsində Şamaxıda böyük var-dövlət yığılır, yerli sakinlər bundan yararlanaraq dolanır və varlanırlar" [7, 94]. Şamaxı xanlığı yaranarkən Məhəmməd Səid və Ağası qardaşları öz iqamətgahlarını Köhnə Şamaxıya köçürürlər. Lakin 1766-cı ildə qubalı Fətəli xan tərəfindən məğlub olurlar və bu dəfə Yeni Şamaxının dağıdılması, əhalinin Köhnə Şamaxıya köçürülməsi əmri verilir. 1776-cı ildə Fətəli xan qardaşlar ilə barışaraq, qohumluq əlaqələri yaradır. Qısa müddətə şəhərdə sabitlik yaransa da, Ağa Məhəmməd xan Tiflisdən qayıdarkən Şirvan əyanlarından şübhələnərək şəhəri tamamilə dağıdır. Bunun ardınca 1796-cı ildə ruslar Şamaxı şəhərinə daxil olurlar, Mustafa xan şəhər sakinləri ilə birgə Fitdağda gizlənir. Bu dövrdə Şamaxıda olan M.Biberşteyn şəhərin dəhşətli zəlzələdən dağıldığını qeyd edir [1, 467]. Bir tərəfdən siyasi qüvvələr arasında çəkişmə meydanına çevrilmiş, digər tərəfdən təbii fəlakət nəticəsində dağılan Şamaxının bir daha özünə gəlməsi bir neçə on il çəkir. Mənbələrdə verilən məlumata əsasən XVIII əsrdə Şamaxı şəhərinin kifayət qədər inkişaf etdiyini görürük.

Azərbaycanın digər qədim şəhəri Gəncə idi ki, 1703-cü ildə burada olmuş Korneli de Bruin yazırdı ki, Gəncə "Şamaxının 50 lyölüyündə yerləşir və ondan 4 dəfə böyükdür, evlərin əksəriyyəti daşdan olub ikimərtəbəlidir, iri və gözəl küçələr, bazarlar və karvansaralar vardı, qubernator (vali) sarayı vardı. Şəhərin mərkəzindən çay keçir, çoxlu bağ, şərab və meyvə bolluğudu... buna görə Səfəvilərin əsas şəhəri hesab edilə bilər" [8, l.5]. Cin Otterin qeydinə əsasən "Böyük İsgəndər tərəfindən salınan Gəncə şəhəri vaxtilə böyük şəhər olmuşdu, burada qədim binaların dağıntılarını görürük" [5, 290]. Qeyd etmək lazımdır ki, Gəncə və Dərbənd şəhərlərinin Makedoniyalı (Böyük) İsgəndər tərəfindən salınması haqqında ayrı-ayrı xarici səyyahların əsərlərində olan məlumatlar mənbələrdə öz təsdiqini tapmamışdır. Çünki Makedoniyalı İsgəndərin Azərbaycanda olması mənbələrdə əks olunmayıb. 1745-1747-ci illərdə Gəncədə olmuş səyyah İ. Lerx şəhər haqqında belə yazır: "Gəncə əvvəllər böyük şəhər olmuşdur, lakin hazırda o çox dağılmışdır, şəhərdə yalnız uçulub dağılmış evlər və karvansaralar görünürdü" [10]. Şəhər haqqında xanlıq dövrünün səyyah gündəliyində də məlumata təsadüf edilir. İ.A.Qildenştedt yazır ki, Gəncə mahalında (xanlıq) ancaq eyniadlı şəhər az-çox əhəmiyyətini saxlayır, digər yaşayış məskənləri əhəmiyyətsiz kəndlərdir [9, 171]. Mənbələrdə siyasi hadisələrlə əlaqədar olaraq XVIII əsr boyunca Gəncənin yüksəliş və tənəz-

zülünü izləyirik.

Bakı şəhəri yaranma tarixinə görə Azərbaycanın ən qədim yaşayış məskənlərindən biridir. XVIII əsrin qaynaqlarında daha çox məlumat verilən şəhər kimi Bakı həm də Azərbaycanın əsas limanı hesab edilir. C.Belin qeydlərinə əsasən "Niyazabaddan şərqdə əhəmiyyətli iki şəhər vardır ki, bunlar Abşeron və Bakıdır. Xəzər sahillərində ən yaxşı liman Bakıya məxsusdur" [3, 390]. Bakı haqqında İ.Q.Gerber yazır ki, Bakı bir neçə sajen dənizə girən .... ikiqat divarlarla və xəndəklə əhatə olunub... Bakını sultan, əyaləti isə sultana tabe naib idarə edir [7, 97-98]. İ.Lerxin də gündəliyində eyni məlumata təsadüf edilir. O yazır ki, Bakı qalasının çöl divarı bir qədər alçaq olub, xəndəklə əhatələnib, ancaq xəndəkdə su yoxdur [11, 13]. Bakı şəhəri qeyri-simmetrik olub, əyri və dar küçələrinə daş döşənmişdir, evlər yonulmamış daşdandır, neftlə qarışdırılmış torpaqla örtülmüşdür [12, 400]. C.Bel Abşeron və Bakı haqqında danışarkən buranın "Xəzər dənizinin ən yaxşı limanlarından biri" hesab edildiyini, "digərlərinin isə heç adını çəkməyə dəyməz" – deyə qeyd edir [3, 390]. İ.Lerx bu barədə yazır ki, təbiət burada yaxşı liman yaratmışdır. Gəmilər qala divarlarına yaxın lövbər salırlar [11, 13]. XVIII əsr qaynaqlarına əsasən Bakının iqtisadi cəhətdən əhəmiyyətini daha qabarıq şəkildə izləmiş oluruq.

XVIII əsr əcnəbi müəlliflərin məlumatları əsasında Azərbaycan şəhərləri haqqında verilmiş təsvirlər böyük maraq doğurur. Bunlar əsasında XVIII əsrin siyasi hadisələri və hərbi əməliyyatları zəminində dağıntılara məruz qalan və tənəzzülə uğrayan Azərbaycan şəhərlərini, onların tez bir zamanda öz əvvəlki nüfuzuna qayıtmasını görürük. Ümumiyyətlə, XVIII əsr Azərbaycan tarixinin öyrənilməsində xarici ölkələrin səyyah, tacir və diplomatlarının qeydləri bir qaynaq kimi xüsusi çəkiyə malikdir.

## ƏDƏBİYYAT


1. Биберштейн М. Описание провинций, расположенных на левом берегу Каспийского моря, между реками Терек и Кура. НАИИ НАН Аз., 466, л. 56. Биберштейн М. Описание провинций, расположенных на левом берегу Каспийского моря, между реками Терек и Кура. НАИИ НАН Аз., 466, л. 56.
2. Жизнь Артемия Араратского. Издание подготовиль К.Н.Григорьян при участии Р.Р.Орбели. 1981, 224 с.
3. Путешественники об Азербайджане. т. I, Составиль З.И.Ямпольский. Баку: Наука, 1961, 425 с.
4. Посланник Петра I на Востоке. Посольство Флорио Беневени в Персию и Бухару в 1718 - 1725 годах. М.: Наука, 1986, 158 с.
5. Jean Otter. Voyage en Turquie et en Perse. Avec un Relation des expeditions de Tahmas Kouli-Khan. T.II. Paris, 1748,
6. Hanway Jonas. A Historical Account of British Trade over the Caspian Sea, with a Journal of Travels from London throught Russia into Persia; and back again through Russia, Germany and Holland. London: Mr. Waugh, in Lombard-street and Mr. Willock, in Cornhill, 1753, pp. 301
7. Гербер И.Г. Описание стран и народов вдоль западного берега Каспийского моря 1728 г. //История, география и этнография XVI-XIX вв. Архивные материалы. Москва: Издательство восточной литературы,1958. с.60-119

8. Корнели де Бруин. «Извлечение из путешествия Корнелия де Бруина» (перевод с франц. Абезгуза). НАИИ АН Азерб., инв.480
9. Гильденштедт И.А. Путешествие по Кавказу в 1770-1773 гг. Перевод Т.К.Шафрановский. Спб: Петербургское Востоковедение, 2002, 512 с.
10. Лерх И. Выписки из дневника путешествия в 1733-1735 гг. //www.vostlit.info
11. Лерх Иоган Якоб. Извлечения из дневника путешествия И.Я.Лерха НАИИ НАНА, инв.487. Сведения о втором путешествие в Персию, современном в 1745-1747 гг. Перевод Абезгуз. НАИИ НАНА, инв.490
12. Броневский С. Новейшая географические и исторические известия о Кавказа. Часть 2. М.: Типография С.Скливановского, 1823, 465 с.

## ОПИСАНИЕ ГОРОДОВ АЗЕРБАЙДЖАНА В XVIII ВЕКЕ В ДОКУМЕНТАХ ДИПЛОМАТИЧЕСКИХ МИССИЙ

**З.Р.ИСЛАМОВА**

### РЕЗЮМЕ

Данная статья посвящена описанию городам Азербайджана XVIII века, описано экономическая и социальная жизнь этих городов. Документы дипломатических представительств, дневники путешественников содержит множество информации о наиболее важных городов. В этой статье, проанализированы социально-экономические примечании и сравнины эти важные факторы.

**Ключевые слова**: Сефевиды, Азербайджан, Шемахи, Гянджа, Баку, город

## DESCRIPTION OF THE CITIES OF AZERBAIJAN IN THE DOCUMENTS OF DİPLOMATİC MİSSİONS OF THE XVIII CENTURY

**Z.R.ISLAMOVA**

### SUMMARY

This article describes the Azerbaijani cities of the XVIII century, and their economic and social life. Documents of diplomatic missions, travel diaries contain a lot of information about the most important cities. In this paper, we analyzed the socio-economic notes and compared these important factors.

**Keywords:** Safavids, Azerbaijan, Shamakhy, Ganja, Baku, city